**Muxtar Auezov**

Görkəmli qazax yazıçısı, dramaturqu, filoloq-alimi, ictimai xadimi Muxtar Auezov zəngin yaradıcılığı ilə doğma xalqının ədəbiyyat və elm tarixinə özünün imzasını əbədi yazmışdır. Onun yaradıcılıq axtarışları – həm elmi əsərləri, həm də bədii əsərləri müəllifin sağlığından başlayaraq indiyə kimi özünün dəyərini, siqlətini qoruyub saxlamağı bacarmışdır.

Görkəmli qazax alimi, yazıçı, əməkdar elm xadimi, Qazaxıstan Elmlər Akademiyasının akademiki Muxtar Auezov 1897-ci il sentyabrın 28-də anadan olmuşdur. O, ilk təhsilini babasından almışdır. Auezov nəvəsinə qazax yazılı ədəbiyyatının banisi Abay Kunanbayevin şeirlərindən əzbərlətmişdir. Ədəbi yaradıcılığa 1917-ci ildə "Yenlik-Kebek" pyesi ilə gəlməklə XX əsrin 20-30-cu illərindən "Müdafiəsizlərin taleyi", "Kimdir müqəssir?" və s. kimi hekayələr, "Aşırımda atəş", "Abay", "Qaragöz", "Şəfəq", "Sərhəddə", "Qaraqıpçaq Koblandı" və s. kimi povestlərlə tanınıb. Müxtəlif illərdə "Boz yırtıcı", "Qəddar illər", "Yetimin payı", "Keçmişin kölgəsində", "Barımta", "Yetim", "Evlənmə", "Qiyam" və s. kimi maraqlı əsərlər qələmə alıb.

Bütün həyatı boyunca ən çox təsirləndiyi şəxs Abay Kunanbayev olmuşdur. Onun haqqında yazdığı "Abay yolu" romanını tədqiqatçılar “qazax xalqının həyatının ensiklopediyası” adlandırırlar. Əsər hələ 1954-cü ildə doğma dilimizə tərcümə edilərək nəşr edilmiş və oxucular tərəfindən maraqla qarşılanmışdı.

Bütün nüfuz, hörmət və xidmətlərinə baxmayaraq, M.Auezovun özü sovet rejimi zamanı ardıcıl şəkildə ciddi təzyiqlərə məruz qalmışdır. “Burjua milliyyətçiliyində” günahlandırılan M.Auezov 1923-cü ildə partiyadan xaric olunmuş, 1930-cu ildə mühakimə edilmiş və iki il yarım həbsdə saxlanılmış, 1937-ci ildə işdən çıxardılmış, əsərlərini kitabxanalardan yığışdırılmışdır. O, 1952-ci ildə yenidən işdən azad edilmiş, mətbuatda ona qarşı əsassız tənqidlər təşkil edilmişdir. Maraqlıdır ki, sənətkarın ölümündən sonra da rejim onu bağışlaya bilmirdi. Onun 1928-ci ildə qələmə aldığı “Xan Kenə” pyesi yalnız 1993-cü ildə işıq üzü görmüşdür.

Muxtar Auezov 1961-ci ildə Moskvada xəstəxanada əməliyyat zamanı dünyasını dəyişir. Yazıçı daim təqib və basqılara məruz qalsa da, onun bədii və elmi irsi, həyatı və fəaliyyəti qazax milli təfəkkürünün ən parlaq səhifələrini təşkil etməkdədir.